Xalq Bank


**Açıq Səhmdar Cəmiyyəti "Xalq" Bankı**

Ünvan: AZ1065, Bakı şəhəri Yasamal rayonu, İnşaatçılar pr., ev 22L
Tel.: +99412 404-43-43 /E-mail: mail@xalqbank.az

**"Azərbaycan Kredit Bürosu" MMC**

Ünvan: "World Business Center" iş mərkəzi | Səməd Vurğun küç. 43 | AZ1014, Bakı, Azərbaycan/ Tel.: +99412 597-30-55 / E-mail: office@acb.az


# Kredit tarixçəsinin tərtib edilməsi üçün məlumatların kredit bürosuna təqdim edilməsinə və ya kredit bürosundan kredit hesabatının əldə edilməsinə Razılıq ərizəsi

| | |
|---|---|
| ☐ **Fiziki şəxs üzrə** | |
| **Fiziki şəxsin eyniləşdirmə məlumatları:** | |
| Adı, soyadı, ata adı: | |
| Sənədin seriyası və nömrəsi | Sənədin FİN kodu: __________ |
| VÖEN-i (əgər varsa): ______________________ | |
| **Şəxsin adından çıxış edən səlahiyyətli şəxsin eyniləşdirmə məlumatları:** | |
| Adı, soyadı, ata adı: | |
| Sənədin seriyası və nömrəsi | Sənədin FİN kodu: |
| Səlahiyyəti təsdiq edən sənədin adı: | |
| ☐ **Hüquqi şəxs üzrə** | |
| **Hüquqi şəxsin eyniləşdirmə məlumatları:** | |
| Adı:_________________ | VÖEN-i: _________________ |
| **Şəxsin adından çıxış edən səlahiyyətli şəxsin eyniləşdirmə məlumatları:** | |
| Adı, soyadı, ata adı: _________________ | |
| Sənədin seriyası və nömrəsi: _________________ | Sənədin FİN kodu: _________ |
| Səlahiyyəti təsdiq edən sənədin adı: | |
| **Razılıq verilən kredit bürosunun məlumatları:** | |
| Adı: **"Azərbaycan Kredit Bürosu" MMC** | VÖEN-i: **1305349901** |
| Razılığın tərtib olunma tarixi: | |
| **Məlumatın toplanılmasına və işlənilməsinə kredit tarixçəsi subyektinin münasibəti:** | |
| Haqqımda toplanmış məlumatların kredit bürosundan əldə edilməsinə | ☑ **razıyam *** ☐ razı deyiləm |
| Haqqımda toplanan məlumatların kredit bürosuna təqdim edilməsinə | ☑ **razıyam *** ☐ razı deyiləm |
| **Məlumatın toplanılmasına və işlənilməsinə kredit tarixçəsi subyektinin münasibəti:** | |
| Toplanılmasına və işlənilməsinə razılıq verilmiş məlumatlar (Kredit təşkilatları üçün mütləq Bütün məlumatlar seçilməlidir) | ☑ **Bütün məlumatlar *** ☐ Kredit tarixçəsi subyektinin qeyd etdiyi məlumatlar |
| Məlumatların transsərhəd ötürülməsinə | ☑ **razıyam *** ☐ razı deyiləm |
| Məlumatların "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununun 11.3-cü maddəsində nəzərdə tutulmuş hallarda başqa kredit bürosuna ötürülməsinə | ☑ **razıyam *** ☐ razı deyiləm |
| Məlumatın saxlanma müddəti başa çatdıqdan və ya kredit tarixçəsi subyektinin ölümündən sonra | ☐ məhv edilsin ☑ **arxivləşdirilsin *** |
| Kredit tarixçəsi subyektlərinin ödəmə qabiliyyətinin və borc öhdəliklərinin icra intizamının qiymətləndirilməsi və kredit tarixçəsinin subyektlərinə fərdi kredit reytinqlərinin verilməsinə | ☑ **razıyam *** ☐ razı deyiləm |
| **Razılığın müddəti və onun geri götürülməsi:** | |
| Borc öhdəliyi ilə bağlı olmayan hallar üzrə razılığın qüvvədə olma müddəti və onun geri götürülməsi şərtləri | Müddətsiz<br>Yoxdur<br>(şərtlər) |
| **Razılığı alınmış şəxsin təsdiq qeydləri:** | |
| Razılıq alınarkən məlumat təchizatçısı və ya məlumat istifadəçisinin Qanunla müəyyən olunmuş vəzifələri və mənim hüquqlarım barədə mənə məlumat verilməsini | ☑ **təsdiq edirəm *** ☐ inkar edirəm |
| **Kredit tarixçəsi subyektinin (və ya səlahiyyətli şəxsin) imzası və əlaqə nömrələri:** | |
| Telefon: | İmza: _________________________ |

| | |
|---|---|
| **Razılığı almış şəxsin adı, soyadı və imzası:** | |
| Adı, soyadı: _________________________ | İmza: _________________________ |

**“Kredit büroları haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq yaradılan Kredit bürosunda (Bürolarında) formalaşdırılan kredit tarixçələri ilə bağlı kredit tarixçəsi subyektinin hüquq və vəzifələri haqqında**

**MƏLUMAT**

“Kredit büroları haqqında” Azərbaycan Respublikasının Qanununa (Bundan sonra – “Qanun”) müvafiq olaraq ***kredit büroları*** fiziki və hüquqi şəxslərə öz maliyyə öhdəliklərinin icrası barədə uzunmüddətli məlumat bazasının formalaşdırılması yolu ilə maliyyə xidmətlərinə çıxış imkanlarının yaxşılaşdırılması, borc münasibətlərində maliyyə intizamının möhkəmləndirilməsi və ölkədə maliyyə sisteminin sabitliyinin təmin edilməsi məqsədilə yaradılan və həmin Qanun əsasında fəaliyyət göstərən kommersiya hüquqi şəxslərdir.

Bu məlumat xarakterli sənəddə (Bundan sonra – “Sənəd”) nəzərdə tutulmuş kredit tarixçələri ilə bağlı kredit tarixçəsi subyektinin hüquq və vəzifələri barədə məlumatların sonuncuya verilməsi ASC “Xalq” Bankının müvafiq hallarda məlumat təchizatçısı kimi və ya məlumat istifadəçisi kimi çıxış etməsindən asılı olaraq Qanunun müvafiq olaraq 12.4.4-cü və ya 13.3.2-ci maddələrində təsbit edilmiş vəzifələrindən irəli gəlir.

**1. Hazırki sənəddə istifadə edilən anlayışlar**

**1.1.** Bu Sənəddə istifadə edilən anlayışlar Qanuna müvafiq olaraq aşağıdakı mənaları daşıyır:

**1.1.1.** ***Kredit tarixçəsi*** – məlumatların saxlandığı üsul və formadan asılı olmayaraq kredit tarixçəsi subyektinin cari və ödənilmiş borcları, borc öhdəliklərinin təminatı ilə bağlı, habelə ödəmə qabiliyyətinin və borc öhdəliklərinin icra intizamının qiymətləndirilməsi üçün Qanuna uyğun olaraq lazım olan digər məlumatların məcmusu;

**1.1.2.** ***Kredit tarixçəsinin subyekti*** – barəsində kredit tarixçəsi formalaşdırılan fiziki və ya hüquqi şəxs;

**1.1.3.** ***Kredit hesabatı*** – Qanunla icazə verilən məqsədlər və həcm daxilində məlumat istifadəçilərinə kredit tarixçəsindən verilən məlumat;

**1.1.4.** ***Məlumat təchizatçısı*** – kredit bürosunu məlumatlarla birbaşa və ya “Elektron hökümət” portalı vasitəsilə təchiz edən ASC “Xalq” Bankı və müvafiq hallarda Qanunun 12.1-12.3-cü maddələrində göstərilən digər subyektlər;

**1.1.5.** ***Məlumat istifadəçisi*** – kredit bürosundan kredit hesabatlarını almaq hüququ olan ASC “Xalq” Bankı və müvafiq hallarda Qanunun 13.2-ci maddəsində göstərilən digər subyektlər;

**1.1.6.** ***Pozitiv məlumat*** – kredit tarixçəsi subyektinin borc öhdəliyinin yarandığı vaxtdan onun ödəmə qabiliyyətini və borc öhdəliklərinin icra intizamını müsbət xarakterizə edən hər hansı məlumat;

**1.1.7.** ***Neqativ məlumat*** – kredit tarixçəsi subyektinin borc öhdəliyinin yarandığı vaxtdan onun ödəmə qabiliyyətini və borc öhdəliklərinin icra intizamını mənfi xarakterizə edən hər hansı məlumat.

**2. Kredit tarixçəsi subyektinin hüquqları**

**2.1.** Qanunun 14-cü maddəsinə əsasən kredit tarixçəsi subyekti aşağıdakı hüquqlara malikdir:

**2.1.1.** Kredit tarixçəsinin tərtib edilməsi üçün neqativ və pozitiv məlumatların kredit bürosuna təqdim edilməsinə (Mərkəzləşdirilmiş Kredit Reyestrindən Kredit Bürosuna ötürülmüş məlumatlarda sonrakı dəyişikliklər barədə kredit təşkilatı kimi ASC “Xalq” Bankı tərəfindən məlumatın verilməsi halı istisna olmaqla) razılıq vermək;

**2.1.2.** Qanuna müvafiq olaraq məlumat istifadəçisi kimi çıxış etdiyi ASC “Xalq” Bankına öz kredit tarixçəsini təşkil edən məlumatın kredit bürosundan alınmasına (Qanunun 6.4-cü maddəsində nəzərdə tutulmuş rəsmi nəşrlərdən, rəsmi informasiya resurslarından və digər rəsmi mənbələrdən əldə olunmuş məlumatın alınması istisna olmaqla) razılıq vermək;

**2.1.3.** Kredit bürosundan özü haqqında kredit hesabatını almaq;

**2.1.4.** Yanlış hesab etdiyi məlumatın yoxlanılması və həmin məlumatda müvafiq düzəlişlərin edilməsi barədə kredit bürosuna və Qanuna müvafiq olaraq məlumat təchizatçısı kimi çıxış etdiyi ASC “Xalq” Bankına müraciət etmək;

**2.1.5.** Özü barəsində kredit tarixçəsindəki məlumatların məhv edilməsini (həmin məlumatda edilmiş son dəyişiklikdən sonra neqativ məlumatın 10 il müddətindən tez məhv edilməsi halı istisna olmaqla) tələb etmək;

**2.1.6.** Özü barəsində kredit tarixçəsindəki məlumatların toplanılması, işlənilməsi və verilməsinin hüquqi əsaslandırılmasını tələb etmək, bu məlumatların toplanılması, işlənilməsi və verilməsinin onun üçün hansı hüquqi nəticələrə səbəb olacağı barədə məlumat almaq;

**2.1.7.** Bu Sənədin 2.1.1 və 2.1.2-ci bəndlərində qeyd olunmuş razılığı pozitiv məlumatlara aid hissədə geri götürmək.

**3. Kredit tarixçəsini təşkil edən məlumatların alınması və verilməsinə kredit tarixçəsi subyektinin razılığı və onun hüquqi əhəmiyyəti**

**3.1.** Kredit tarixçəsi subyektinin razılığının verilməsi Qanuna müvafiq olaraq aşağıdakı qaydada həyata keçirilir:

**3.1.1.** Kredit tarixçəsi subyektinin razılığı hər bir borc və ya digər hal üzrə ayrıca verilir. Kredit tarixçəsi subyektinin razılığı borc öhdəliyinə xitam verilənədək, digər hal üzrə isə (kredit tarixçəsi subyektinin razılığının qüvvədə olma müddəti və onun geri götürülməsi şərtləri məlumat təchizatçısı (istifadəçisi) ilə kredit tarixçəsinin subyekti arasında qarşılıqlı razılaşma əsasında müəyyən edilir) razılığın qüvvədə olma müddəti bitənədək və ya o geri götürülənədək öz qüvvəsini saxlayır. Kredit tarixçəsinə daxil edilmiş məlumat son dəyişiklikdən sonra 10 il müddətində kredit bürosunda saxlanılır.

**3.2.** Qanunun 15.5-ci maddəsinin tələbinə əsasən kredit tarixçəsinin subyekti Qanunla tələb olunan hallarda razılığını vermədikdə, onunla ASC “Xalq” Bankı arasında borc öhdəliyinin yaranmasına dair müqavilə bağlana bilməz.

**3.3.** Kredit tarixçəsi subyekti vəfat etdikdə, ölmüş elan edildikdə, xəbərsiz itkin düşmüş, fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə, habelə yetkinlik yaşına çatmadığı, özü razılıq vermək iqtidarında olmadığı hallarda Qanunla tələb olunan razılıq müvafiq olaraq onun vərəsələri, qanuni nümayəndələri, valideynləri və himayəçilərindən biri tərəfindən verilir.

________________

*(imza)*

4. **Kredit bürosuna təqdim edilən məlumat**

**4.1.** Məlumat təchizatçısı kimi ASC "Xalq" Bankı tərəfindən kredit tarixçəsi subyekti barədə kredit bürosuna təqdim edilən məlumatların xarakteri və həcmi Qanunun 16-cı maddəsi ilə müəyyən edilir.

5. **Kredit tarixçəsi subyektinə kredit bürosu tərəfindən kredit hesabatının verilməsi qaydası və şərtləri**

**5.1.** Qanuna müvafiq olaraq kredit tarixçəsi subyektinin kredit bürosuna etdiyi müraciətində digər hal nəzərdə tutulmadıqda, kredit tarixçəsinin subyektinə kredit bürosu tərəfindən verilən kredit hesabatına həmin subyekt haqqında kredit tarixçəsinin məlumat bazasında olan bütün məlumatlar daxil edilməlidir.

**5.2.** Qanunun 21-ci maddəsinə əsasən kredit bürosundan kredit hesabatının əldə edilməsi üçün kredit tarixçəsi subyekti tərəfindən xidmət haqqının ödənilməsi qaydası aşağıdakı kimi müəyyən edilmişdir:

**5.2.1.** Kredit bürosu kredit tarixçəsi subyektinə onun haqqında məlumatları sorğu əsasında hər təqvim ili ərzində ən azı 2 dəfə ödənişsiz olaraq təqdim etməlidir.

**5.2.2.** Kredit tarixçəsi subyekti kredit bürosunun təyin etdiyi haqqı ödəməklə, bu Sənədin 5.2.1-ci bəndində nəzərdə tutulmuş şərtlərdən asılı olmayaraq, özü haqqında kredit hesabatını istənilən vaxt almaq hüququna malikdir.

6. **Kredit tarixçəsində düzəlişlərin edilməsi barədə kredit tarixçəsi subyektinin müraciəti**

**6.1.** Kredit tarixçəsi subyektinin kredit bürosuna kredit tarixçəsində düzəlişlərin edilməsi barədə müraciəti Qanunun 18-ci maddəsinin tələbinə əsasən aşağıdakı qaydada həyata keçirilir:

**6.1.1.** Kredit tarixçəsinin subyekti öz kredit hesabatını təşkil edən məlumatın yanlış olmasını aşkar etdikdə, düzgün olmayan məlumatın aradan qaldırılması üçün müvafiq kredit bürosuna və məlumat təchizatçısı kimi ASC "Xalq" Bankına müraciət edə bilər. Müraciətə məlumatın düzgün olmamasını təsdiq edən sənədlərin surətləri əlavə edilməlidir.

**6.1.2.** Müraciət kredit bürosuna edildiyi halda, kredit bürosu həmin müraciəti aldıqdan sonra növbəti iş günündən gec olmayaraq kredit tarixçələrinin məlumat bazasının müvafiq hissəsinə "dəqiqləşdirilir" qeydini daxil edir və məlumatın düzgünlüyünün yoxlanılması üçün məlumat təchizatçısına sorğu göndərir. Müraciət kredit tarixçəsində olan Qanunun 6.4-cü maddəsində göstərilən - rəsmi nəşrlərdə, rəsmi informasiya resurslarında və digər rəsmi mənbələrdə ümumi istifadə üçün açıq olan məlumatla bağlı olduqda, kredit bürosu 2 iş günü müddətində məsələni araşdırır və nəticəsindən asılı olaraq səhvi düzəldir və səhv kredit hesabatını almış məlumat istifadəçilərinə xidmət haqqı tələb edilmədən yeni kredit hesabatını verir, məlumatın düzgün olduğunu müəyyən etdikdə isə kredit tarixçəsi subyektinə müraciətin baxılmasının nəticələri barədə əsaslandırılmış cavab verir.

**6.1.3.** Məlumat təchizatçısı sorğunu aldığı gündən 3 iş günü müddətində kredit tarixçəsinin subyekti haqqında kredit bürosuna verdiyi məlumatın düzgünlüyünü yoxlayır, məlumatın düzgün olması və ya aşkar edilmiş səhvin aradan qaldırılması barədə kredit bürosuna müvafiq məlumat göndərir.

**6.1.4.** Məlumat təchizatçısı tərəfindən kredit bürosuna səhvin aradan qaldırılması barədə məlumat daxil olduğu gündən 2 iş günü müddətində kredit bürosu kredit tarixçəsindəki səhvi düzəldir və səhv kredit hesabatını almış məlumat istifadəçilərinə xidmət haqqı tələb edilmədən yeni kredit hesabatını verir. Digər halda - məlumatın düzgün olması barədə məlumat daxil olduğu gündən 2 iş günü müddətində kredit bürosu kredit tarixçəsi subyektinə müraciətin baxılmasının nəticələri barədə əsaslandırılmış cavab verir.

**6.1.5.** Kredit tarixçəsinin subyekti bu Sənədin 6.1.4-cü bəndində nəzərdə tutulmuş müraciətin baxılmasının nəticələri barədə kredit bürosu tərəfindən verilən cavabla razılaşarsa, kredit tarixçəsində heç bir dəyişiklik edilmir.

Kredit tarixçəsinin subyekti araşdırmanın nəticələri ilə razı olmadıqda, kredit bürosu kredit tarixçəsində bu barədə qeyd aparır. Bu zaman kredit tarixçəsinin subyektinə narazılığının səbəblərini izah edən qeydlərin qısa olaraq kredit tarixçəsində yerləşdirilməsi üçün imkan yaradılmalıdır.

**6.1.6.** Kredit tarixçəsinin subyekti araşdırmanın nəticələri ilə razı olmadıqda, nəzarət orqanına və məhkəməyə şikayət verə bilər.

**6.2.** Bu Sənədin 6.1.2-ci bəndinin 1-ci cümləsində nəzərdə tutulmuş müvafiq qeyd daxil edildiyi andan həmin bəndin 2-ci cümləsində və bu Sənədin 6.1.4-cü bəndinin 1-ci cümləsində əks olunmuş müddəalara uyğun olaraq yeni kredit hesabatı və ya əsaslandırılmış cavab verilənədək kredit bürosu tərəfindən məlumat istifadəçilərinə müvafiq kredit tarixçəsindən kredit hesabatı "dəqiqləşdirilir" qeydi ilə verilir.

***Kredit tarixçəsini təşkil edən məlumatların alınması, işlənilməsi və verilməsi ilə bağlı kredit tarixçəsi subyektinin qanunla nəzərdə tutulan hüquqları barədə məlumatın ASC "Xalq" Bankı tərəfindən yazılı şəkildə təqdim edildiyini hazırki imza ilə təsdiq edirəm/edirik:***

***M.Y*** ________________/____________________________________

***(imza)*** ***(kredit tarixçəsi subyektinin (nümayəndəsinin) S.A.A.)***

**“ASAN Finans” sistemi vasitəsilə şəxsiyyət vəsiqəsində olan məlumatların, habelə cari və əvvəlki iş yer(lər)i və/və ya pensiya və ya sosial müavinət barədə məlumatların alınmasına və işlənməsinə dair**

**Razılıq ərizəsi**

Tarix : ____________

Fərdi məlumatlar subyektinin soyadı, adı, atasının adı: ______________________________________

Fərdi məlumatlar subyektinin FİN-i : _____________________

Bununla mən, ASC “Xalq” Bankına (hüquqi ünvanı: AZ 1065, Bakı şəhəri, İnşaatçılar prospekti 22L, VÖEN 2000296061, bundan sonra – “Bank”) etdiyim müraciət əsasında mənə kreditin verilib-verilməməsi və ya verilmiş kredit(lər)in şərtlərinin dəyişdirilməsi (o cümlədən, verilmiş kredit(lər)in restrukturizasiyası) məsələsinin həll edilməsi, habelə mənim Bank qarşısında kredit və/və ya zaminlikdən irəli gələn öhdəliklərimin mövcud olduğu müddətdə Bankda saxlanılan mənə aid fərdi məlumatların yoxlanılması, yenilənməsi və onlarla qanunvericiliklə nəzərdə tutulmuş digər əməliyyatların aparılması məqsədilə şəxsiyyət vəsiqəmdə göstərilən məlumatların, habelə mənim cari və/və ya əvvəlki iş yer(lər)im və/və ya mənə təyin edilmiş pensiya və ya sosial müavinət barədə aşağıdakı məlumatların “Elektron Hökumətin İnkişafı Mərkəzi” publik hüquq şəxsinin operatoru olduğu “ASAN Finans” sistemi vasitəsilə alınmasına və onların qüvvədə olan qanunvericiliyinə uyğun olaraq işlənməsinə Banka razılıq verirəm:

**Cari iş yer(lər)i üzrə**:

1) İşçinin S.A.A.;
2) İşəgötürənin adı, hüquqi ünvanı, VÖEN-i, əlaqə telefon nömrəsi;
3) İşəgötürənin işçilərinin sayı;
4) İşçinin iş yerinin əsas və ya əlavə olması, çalışdığı struktur bölmənin adı, tutduğu vəzifə (məşğulluq üzrə və əmək müqaviləsi üzrə), aldığı əmək haqqı və əməyinin ödənilməsi növü (işəmuzd və ya vaxtamuzd);
5) İşçinin əmək müqaviləsinin müddətli və ya müddətsiz olması, əmək müqaviləsinin imzalanması (müqaviləyə son dəyişikliklərin edilməsi), başlanması və bitməsi, sistemə daxil edilməsi tarixləri, əmək müqaviləsinin nömrəsi;
6) Əmək müqaviləsinin cari statusu;
7) İşçinin sosial sığorta nömrəsi;
8) İşçinin əlaqə telefon nömrəsi.

**Əvvəlki iş yer(lər)i üzrə**:

1) İşəgötürənin adı;
2) İşçinin əmək müqaviləsinin başlama və bitmə tarixləri;
3) İşçinin vəzifəsi;
4) İşçinin əmək haqqı.

**Pensiya və ya sosial müavinətlər üzrə:**

1) Pensiyaçı və ya sosial müavinət alan şəxsin S.A.A.;
2) Pensiyaçı və ya sosial müavinət alan şəxsin doğum tarixi;
3) Pensiya və ya sosial müavinətin təyinatının tarixi;
4) Pensiya və ya sosial müavinətin bitmə tarixi;
5) Pensiya və ya sosial müavinətin növü, qrupu, məbləği.

Bu razılıq ərizəsi imzalandığı gündən qüvvəyə minir və hansı müddətin daha uzun olmasından asılı olaraq:

1) yaranması və ya dəyişdirilməsi (o cümlədən restrukturizasiya edilməsi) nəzərdə tutulan Bank qarşısında kredit və ya zaminlikdən irəli gələn öhdəliklərimin tam icra olunması tarixinə; və ya
2) Bank qarşısında mövcud olan kredit və ya zaminlikdən irəli gələn öhdəliklərimin tam icra olunması tarixinə; və ya
3) 10 (on) il müddətinə qədər öz qüvvəsini saxlayır.

Bu razılığı istənilən vaxt yazılı müraciətimə əsasən tərəfimdən geri götürmək imkanı mənə izah edilmişdir.

Bu razılıq əsasında əldə edilmiş məlumatlar qüvvədə olan qanunvericiliklə Bankın informasiya sistemində müvafiq sənəd və məlumatların saxlanması üçün nəzərdə tutulmuş müddətdə saxlanılır və həmin müddət bitdikdən sonra məhv edilir.

________________/______________________________/

(imza) (fərdi məlumatlar subyektinin A.A.S)